# Kiçik yaşlarından vətənpərvər olmalısan

**Şəhid Rəfail İşiyev İkinci Qarabağ müharibəsində Vətən yolunda son damla qanına qədər mərdliklə döyüşüb şəhid olub. O, 1979-cu ildə Cəlilabad şəhərində müəllim ailəsində dünyaya göz açıb. Xalqımızın igid, vətənpərvər oğlu 41 yaşında adını tarixə yazıb, qazanılan şanlı qələbəmizin qəhrəmanlıq simvoluna dönüb.**

Bütün istək və arzuları xoş sabahlara köklənən 1996-cı ildə Cəlilabad şəhər 8 saylı məktəbi bitirib hərbi xidmətə yollanıb. Cəbhə bölgəsində əsgərliyə başlayan gənc ilk gündən Vətənin keşiyində vicdanla, qeyrətlə duracağına, murdar niyyətli ermənilərə qarşı amansız olacağına and içib.

Qatıldığı təlimlərdə daim əla döyüşçü keyfiyyətləri ilə fərqlənib. Torpaqların müdafiəsində hərbi texnikanın rolunu yaxşı başa düşən Rəfail bu sahəyə daha çox meyil göstərib. PDM (BMP) mütəxəssisi olub. Hərbi işə səriştəsi, Vətən sevgisi onu bu sahəyə bağlayıb. Ömrünün 16 ilini orduda keçirən Cəlilabad elinin qeyrətli, mərd oğlu Azərbaycanın hər qarışına olan sevgisini odlu-alovlu döyüş meydanlarında sübut etməyi bacarıb. Belə ki, 2016-ci ilin Aprel döyüşlərində Vətən torpaqların azadlığı uğrunda ölümə meydan oxumaqla düşmənə qan qusdurub.

Düşmən Lələtəpədən qovulanda bəlkə də hamıdan çox Rəfail sevinib, öz peşəsinə daha da ürəkdən bağlanıb. Bundan sonra onun peşəkarlığı nəzər alınaraq bir neçə dəfə möhtəşəm hərbi paradlara dəvət olunub, medallara layiq görülüb. Həmçinin xidmət zamanı xüsusi keyfiyyətlərinə, əməliyyatlarda göstərdiyi şücaətə görə 3-cü dərəcəli "Qüsursuz xidmətə görə", "Azərbaycan Silahlı Qüvvələrinin 90 illiyi", "Azərbaycan Silahlı Qüvvələrinin 95 iliyi" və "Azərbaycan Silahlı Qüvvələrin 100 iliyi" yubiley medalları ilə təltif edilib.



44 günlük haqq savaşımızda ilk ciddi sınaqdan alnıaçıq çıxan qəhrəman Vətən sevdalısının hünəri hamını heyran qoyub, Rəfail Cəbrayıl rayonunun işğaldan azad edilməsi uğrunda gedən savaşda çoxlu sayda erməni yaraqlısını, tankını məhv edib, onları lərzəyə salıb.

Qızğın döyüşlərin birində onun idarə etdiyi BMP vurulub. Ağır yaralansa da, 2 gün sonra yenidən döyüşlərə qatılıb. Yaralı döyüş yoldaşının BMP-sini idarə edərək Cəbrayıl, Füzuli istiqamətində gedən döyüşlərdə düşmənə ağır zərbələr vurub. Rəfailin idarə etdiyi texnika ikinci dəfə vurulub və özü də yaralanıb. Buna baxmayaraq, bir müddət sonra yenidən erməni qəniməti olan 3-cü BMP ilə döyüşlərə qatılıb, düşmənin kabusuna çevrilib. Son döyüşü isə Xocavənd istiqamətində olub. Rəfail 3 noyabrda şəhadətə qovuşub.




Ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", Füzulinin, Cəbrayılın, Xocavəndin, Şuşanın azad olunmasına görə medallarına layiq görülən şəhidimizin həyat yoldaşı Sevda xanım deyir: - Mən qürur duyuram ki, Rəfail kimi bir qəhrəmanın yoldaşıyam. O, mənim üçün sağdır. Vətən, torpaq yolunda canından keçdi, bütün xalq onun adını iftixarla çəkir. İki oğul yadigarı qalır. Evdə uşaqlara Vətən sevgisi aşılayırdı. Həmişə məsləhət görərdi ki, vətənpərvərliyi uşaqlara kiçik yaşlarda öyrətmək lazımdır...

**Zəfər ORUCOĞLU.**

Respublika .- 2025.- 30 iyul (№ 156). -